# XII ƏSR AZƏRBAYCAN İNTİBAHI VƏ NİZAMİ GƏNCƏVİ

**Solmaz Namazova**
*AMEA Elm Tarixi İnstitutu "Təbiət və Dəqiq Elmlər Tarixi" şöbəsinin əməkdaşı*
*namazovaslmz@gmail.com*
*ORCID ID: 0000-0001-7730-1790*

### *Nizami Gəncəvinin dövründə Azərbaycanda memarlığın inkişafı*

Bildiyimiz kimi, Azərbaycanda mədəni həyatın yüksəlməsi ilə səciyyələnən XII əsr Azərbaycanın intibah dövrü hesab edilir. Bəşər tarixinə dahi şair və mütəfəkkir Nizami kimi böyük şəxsiyyətlər vermiş XII əsr təkcə ədəbiyyatda deyil, mədəniyyətin demək olar ki, bütün sahələrinin, o cümlədən memarlığın da sürətlə inkişafı ilə səciyyələnir. Bu dövrdə Azərbaycanın bir çox şəhərlərində qiymətli sənət nümunələri yaradılmışdır. Görkəmli sənətkarların yaratdıqları memarlıq abidələri öz gözəlliyi, orijinallığı, üslub və möhkəmliyi ilə dünya memarlığının inkişafına xeyli təsir göstərmişdir. XII əsrdə "Yusif ibn-Qasiri" və "Mömünə Xatun" türbələri inşa edilmişdir. Başdan-başa həndəsi nəqşlər və kitabələrlə bəzədilmiş bu türbələr memar Əcəmi ibn Əbu Bəkr ən-Naxçıvani tərəfindən tikilmişdir. Hər iki abidə Azərbaycan memarlığının şah əsərlərindəndir. Qeyd olunan dövrə aid memarlıq abidələri içərisində qalalar və müxtəlif müdafiə qurğuları xüsusi yer tutur. XII əsrdə yaradılmış qalalar içərisində həm sənətkarlıq baxımından, həm də hərbi-strateji cəhətdən Qız qalası xüsusi əhəmiyyət kəsb edir[1]. Bunlardan əlavə, həmin dövrdə Azərbaycan memarları onlarca gözəl saraylar, məscidlər, karvansaralar, körpülər, bürclər və qalalar ucaltmışlar.

### *Nizami Gəncəvinin dövründə Azərbaycanda elm və təhsilin inkişafı*

Qaynaqların məlumatına görə XII əsrdə elm və maarif sahəsində yüksəliş daha bariz şəkildə nəzərə çarpır. Belə ki, tədqiq olunan dövrdə Azərbaycan hökmdarları öz dövlətlərini qüvvətləndirmək üçün elmin, maarifin inkişafına xüsusi diqqət yetirmişdi. Azərbaycan Atabəylərinin hakimiyyəti dövründə ölkənin bir çox şəhərlərində müxtəlif səciyyəli binaların intensiv inşası aparılırdı. Qeyd olunan dövrdə elmi mərkəzlər; rəsədxanalar, darüş-şəfalar, mədrəsələr, kitab evləri inşa edilmişdir. XII əsrdə Azərbaycanda Bağdad "Beytül-hikmə"si tipli elmi kitabxanaların təşkili daha çox diqqəti cəlb edir[2]. Demək olar ki, elm ocaqlarının təsis edilməsi ənənə və sistem halına düşmüşdü. Mənbələrin birində qeyd edilir ki, Azərbaycan Atabəyləri mədrəsə, məscid və sarayların tikintisinə xüsusi fikir verirdi. Mədrəsə və başqa təhsil ocaqlarının tikintisi Atabəylər dövlətinin elm və maarifin inkişafına olan qayğısının təzahürüdür. Mənbələr Azərbaycan şəhərlərində mədrəsələrin əsasını qoyan bəzi şəxslərin adlarını mühafizə edib saxlamışdır. Sonralar həmin mədrəsələr əsasını qoyanların adları ilə məşhurlaşmışdır. Belə ki, Xoyda 1127-ci ildə əsası qoyulmuş əl-Fərəc əl-Hüvəyyi mədrəsəsi məşhurdur. Həmin mədrəsəni əl-Fərac ibn Abdallah ibn Xələf əl-Hüvəyyi tikdirmişdir. Marağada 1134-cü ildə tikilmiş Əhməd-apa mədrəsəsi məşhurdur. Yenə Marağada alim qazı Kəmaləddin Əbu Abdallah Məhəmməd əl-Qəzvini əl-Maraqi

[1] Azərbaycan Tarixi (Uzaq keçmişdən 1870-ci illərə qədər. s.266-267
[2] Hüseyn Əhmədov. Azərbaycan məktəb və pedoqoji fikir tarixi. s. s.24

tərəfindən əsası qoyulmuş "Atabəkiyyə" mədrəsəsi və onun 1208-ci ildə tikdirdiyi "əl-Qazı" Qazı" mədrəsəsi məşhur olmuşdur[1]. Mədrəsələrdə dini və dünyəvi elmlər (ərəb və fars dilləri, şəriət, ədəbiyyat, fəlsəfə, məntiq, psixologiya, astronomiya, coğrafiya, həndəsə, cəbr və s.) tədris edilirdi.

***Dövrün görkəmli mütəfəkkirləri***

XII əsrdə bütöv bir ziyalılar dəstəsi meydana gəlmişdir ki, həmin ziyalılarımızın fəaliyyəti elm və maarifin inkişafına, mədəniyyətimizin zənginləşməsinə böyük təsir göstərmişdir.

Bu dövrdə Məhsəti Gəncəvi, Fələki Şirvani, Xaqani Şirvani, Mücirəddin Beyləqani, Nizami Gəncəvi və başqa bu kimi görkəmli alimlər yaşayıb- yaratmışdılar. Araşdırılan dövrün tarixini öyrənmək nöqteyi-nəzərindən orta əsr alimlərimizin əsərləri çox qiymətli mənbələrdir.

***Azərbaycanın dahi şairi Nizami Gəncəvi***

Məlumdur ki, milli mədəniyyətimizin “qızıl əsri”ni yaradanlardan biri Nizami Gəncəvi (1141-1209-cu illər) olmuşdur. Nizami irsinə diqqət yetirsək onun geniş bilik sahibi olduğunu aydın şəkildə görərik (İlahiyyat, fəlsəfə, astronomiya, coğrafiya, riyaziyyat, kimya, təbabət, tarix və s. elmləri dərindən mənimsəmişdir). Nizami müsəlman aləminə nüfuz etmiş yunan filosoflarının əsərlərindən də geniş şəkildə bəhrələnmişdir. O, ərəb, xüsusilə fars dillərini mükəmməl bilmişdir. Nizaminin Azərbaycan dilində lirik şeirlərindən ibarət dövrümüzədək gəlib çatmamış əlyazmasına dair məlumat vardır. Mənbələrə görə, Nizaminin "Xəmsə"dən başqa 200000 beytdən ibarət şer divanı olmuşdur. Nizaminin poetik irsi otuz min beytlik beş böyük poemadan- "Xəmsə"dən ("Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl", "İskəndərnamə") və qəzəllərdən ibarətdir.

Nizami Gəncəvinin yaradıcılığı hələ sağlığında Azərbaycan, eləcə də bütün Yaxın Şərq ədəbiyyatı və elmi fikri üçün nümunə olmuşdur. Şairin mövzularında əsər yazmaq, onun "Xəmsə"sinə cavab vermək əsrlər boyu Şərq poeziyasında ənənəvi şairlik imtahanı sayılmışdır. XIII əsrdən başlayaraq onun poemalarına 40-dan çox nəzirə yazılmışdr. Əmir Xosrov Dəhləvi, Ə.Cami, Ə.Nəvai kimi böyük sənətkarlar Nizamini ustad adlandırmışlar. Şairin yaradıcılığı Qərbi Avropa ədəbiyyatına da təsir göstərmişdir. Görkəmli tədqiqatçı Y.E.Bertels sübut etmişdir ki, Nizaminin poemaları ilə Avropanın cəngavərlik romanları arasında müəyyən bənzərlik mövcuddur. C.Bokkaççonun "Ameto", K.Qostinin "Turandot", A.R.Lesajın "Çin şahzadə xanımı", Volterin "Zadiq, yaxud tale" və başqa əsərlər Nizaminin poemalarının süjetləri əsasında qurulmuşdur[2]. Nizaminin yaradıcılığı Şərq incəsənətinin, xüsusilə miniatür sənətinin inkişafında mühüm rol oynamışdır.

Nizami Gəncəvinin əsərlərində tarixçi üçün qiymətli məlumatlar vardır ki, onların vasitəsi ilə biz həmin dövrdə baş verən tarixi hadisələr haqqında ümumi təsəvvür yarada bilirik. Dahi şairin əsərlərində mühüm olan məsələlərdən biri hökmdarların fəaliyyətinin qiymətləndirilməsidir. Ümumiyyətlə, Nizami «Beş xəzinə»sini hökmdarların adları ilə bağlamışdır. Bu baxımdan onun əsərlərini iki hissəyə ayırmaq olar: hökmdarlar və tarixi

[1] Ziya Bünyadov. Azərbaycan Atabəyləri dövləti (1136-1225-ci illər. s.207

[2] Səbuhi Əhmədov. Azərbaycan tarixindən yüz şəxsiyyət s.49-50

hadisələr. Xronoloji ardıcıllığa riyaət etsək, bunlar:

Makedoniyalı İskəndər (e.ə. 336-323)

↓

III Dara (hakimiyyət illəri e.ə. 336- 330)

↓

Bəhram Gur (hakimiyyət illəri 421-438)

↓

Xosrov Pərviz(hakimiyyət illəri 591-628)

Bunlardan əlavə, «Xəmsə»də bir sıra hökmdarlar (Xosrov Ənuşirəvan (hakimiyyət illəri 531-579), Hörmüz (hakimiyyət illəri 579-590), I Yezdəgird (hakimiyyət illəri 399-420) və Sultan Səncər (1118-1157)) epizodik xarakter daşıyır. Nizaminin əsərlərində hökmdarın adları və titulları haqqında verilən məlumatlar tarixçi üçün çox qiymətlidir. Şairin bilavasitə mədh etdiyi sülalə, dövrlərində yaşamış olduğu Azərbaycan atabəyləridir. İki böyük əsərini («Xosrov və Şirin» ilə «İskəndərnamə»ni) şair atabəylərə ithaf etmişdir[1].

Bildiyimiz kimi "Xəmsə" şairin ilk böyük əsəri olan **"Sirlər xəzinəsi"** İlə başlanır. Ərzincan hökmdarı Fəxrəddin Bəhram şaha həsr olunmuş bu əsəri Nizami 1175-ci ildə tamamlamışdır. Bəhram şah bu əsəri çox bəyənir və kitabı tərifləyərək deyir: "Mümkün olsaydı, şerlə mirvari kimi düzülmüş bu kitaba mükafat və bəxşiş olaraq böyük xəzinə göndərərdim. Çünki həmin kitabın sayəsində mənim adım dünyada daimi yaşayacaqdır[2]. Əsərdə həyatın müxtəlif sahələri, rəngarəng ictimai problemlər, insanın qarşılaşdığı çətinliklər, cəmiyyətdə hökmranlıq edən zülm və ziddiyyətlər barədə 20 hekayə verilir. Şairin hər bir hekayəsinin arxasında böyük mətləblər durur. "Sirlər xəzinəsi"ndə şairin həll etməyə çalışdığı başlıca problem xalq və hökmdar problemidir. Şair bu mövzunu qələmə alarkən feodal-hakimlərə mədhiyyələr yazmış, sələflərindən fərqli olaraq xalqa doğru kəskin dönüş etmişdir. Əsərdəki bütün söhbətlərdə, xüsusilə "Nuşirəvan və bayquşların söhbəti", "Sultan Səncər və qarı" və başqa hekayələrdə xalqın tərəfində duran böyük şair hökmdarları haqqa-ədalətə çağırmaqla kifayətlənmir, onların səhvlərini, zülmünü, cinayətlərini üzlərinə deyir.

1180-1181-ci illərdə bitirdiyi ikinci poemasını - **"Xosrov və Şirin"**i Nizami sonuncu İraq Səlcuq sultanı III Toğrula həsr edir. Lakin bu, bir növ rəsmi ithaf idi. Əslində isə poema atabəy Əbu Cəfər Məhəmməd Cahan Pəhləvana həsr olunmuşdur. Cahan Pəhləvan 1186-cı ildə öldüyü üçün poemanın mədhi onun qardaşı atabəy Qızıl Arslanın adına yazılır. Nizami sultan və atabəyin sarayına dəvət olunur. Lakin Nizami doğma Gəncəni heç bir zaman tərk etmək istəmədiyindən onun yanına çapar göndərib Gəncənin 30 fərsəngliyindən sultan düşərgəsinə gəlməsi xahiş olunur. Düşərgəyə gələn Nizamini Qızıl Arslan öz çadırında qəbul edir. Poemanın müqabilində Qızıl Arslan bəxşiş olaraq Nizamiyə Həmdünyan kəndini və fəxri geyim təqdim edir[3]. Nizami "Xosrov və Şirin" əsərində Qızıl Arslanla görüşünü də təsvir etmişdir.

Şairin "Xosrov və Şirin"də bəyan etdiyi məhəbbət fəlsəfəsinin əsasında real

[1] Teymur Kərimli. Nizami və tarix. s.14

[2] Azərbaycan Tarixi (Uzaq keçmişdən 1870-ci illərə qədər). s.263

[3] Ziya Bünyadov. Azərbaycan Atabəyləri dövləti (1136-1225-ci illərs.203

tarixi proseslər, bu dünyada yaşamış, mübarizə aparmış tarixi şəxsiyyətlər durur. Buna misal olaraq Hürmüzün, Xosrovun adını çəkə bilərik. Tarixi-güzidə sahibi və sair tarixçilər deyirlər: Hürmüz zülm etməyə başlayınca, xalq ona qarşı üsyan qaldırıb sikkəni onun oğlu Xosrov Pərvizin adına vurdurdular. Buna görə Xosrov Pərviz atasından qorxub Azərbaycana gəldi. Muğan və Bacərvanda olduğu zaman, "Bərdə" hökmdarı Mihinbanu gəlib onu Bərdəyə apardı və ona mehmannəvazlıq etdi. Xosrov Mihinbanunun qardaşı qızı Şirini sevib axırda onu aldı[1]. Şeyx Nizami bu əhvalatı "Xosrov və Şirin" əsərində gözəl bir surətdə təsvir etmişdir. Onu da qeyd etmək lazımdır ki, başqa əsərlərində olduğu kimi, bu poemada da Nizami doğma Vətənin - Azərbaycanın tarixi keçmişini, onun qonşu ölkələrlə qarşılıqlı əlaqələrini diqqət mərkəzində saxlayır, yurdun özündən əvvəl yaşanılmış tarixini gələcək nəsillərə ərməğan edir.

Nizami 1188-ci ildə Şirvanşah I Axsitanın sifarişi ilə özünün üçüncü peomasını - **"Leyli və Məcnun"**u yazır. Şair özünün bu ölməz məhəbbət faciəsini yaratmaq üçün ərəb və fars mənbələri üzərində dərin araşdırmalar aparır, qələmə aldığı mövzunun kökünü arayıb axtarır, ancaq bundan sonra işə başlayır. Nəticədə orta əsr cəhalətinə, nadanlığa, zülmə, dövranın əzici məngənəsinə tab gətirə bilməyən iki gəncin ilahi məhəbbət faciəsini yaradır. Bundan əlavə əsərin bir sıra səhifələrini Şirvanşahlar dövlətinin şəhər həyatının ümumi yüksəlişinə həsr edir. Əsərin altı bəndində Şirvanşah Axsitanın titullarına və ləqəblərinə rast gəlmək olur. Poemada Axsitanın adı aşağıdakı ləqəblərlə çəkilir: Cəlal əd-Dövlə və-d-Din Əbü-1-Müzəffər Məlik əl-Müəzzəm Axsitan ibn Mənuçöhr, Şirvanşah, Xaqan-i Kəbir, yaxud Əkbər. Onu da qeyd etmək lazımdır ki, Nizami Axsitanın ölümü haqqında da məlumatlar vermişdir. Onun ölümü "Şərəfnamə" də xatırlanır[2].

"Xəmsə"yə daxil olan dördüncü əsər **"Yeddi gözəl" poemasıdır** (1197). Nizami bu əsəri Marağa hakimi Ağ-Sunqur Əlaəddin Körpə Arslana (1174-1208) ithaf edir[3]. "Yeddi gözəl" əsərinin əsas mövzusu Sasani hökmdarı Bəhram Gurun həyatından götürülmüşdür. Əsərin başlıca ideyası ölkəni təcrübəli, bilikli, bacarıqlı, ədalətli adamların idarə etməsidir. Əsər şairin intibah dövrü üçün səciyyəvi olan ədalətli hökmdar axtarışlarında çox böyük uğurudur. Nizami Bəhram Gurun simasında ədalətli hökmdar obrazını yarada bilmişdir.

XII əsr də digər əsrlər kimi sakit və dinc bir dövr deyildi. Həmin dövrdə baş verən müharibələr, şahların xalqa tutduğu divanlar, yoxsulların başına açdığı müsibətlər nəticəsində nahaq qanlar tökülmüşdür. Nizami «İskəndərnamə» poemasında bu barədə məlumatlar vermişdir.

Beşinci poemasını - "**İskəndərnamə**"nin Nizami ölümündən bir qədər qabaq 1196 və 1200-cü illər arasında bitirir və Əhər hakimi Nüsrətəddin Piş Təkin ibn Məhəmmədə ithaf edir. "İsgəndərnamə" dövrün qiymətli tarix salnaməsidir. Bu da təsadüfi deyil. Çünki böyük mütəfəkkir əsəri yazmazdan əvvəl yüz minlərlə əhalisi olan qədim sənətkarlıq, ticarət və mədəniyyət mərkəzi Gəncəyə toplanmış müxtəlif dillərdə olan mənbələri dərindən araşdırmış, qədim Azərbaycan, İran, Yunanıstan və başqa ölkələrin tarixini, elmi-fəlsəfi irsini, görkəmli

---

[1] Abbasqulu ağa Bakıxanov. Gülüstani-İrəm.. s.21-22
[2] Sara Aşurbəyli. Şirvanşahlar dövləti. s.170,173
[3] Nizami Gəncəvi. Yeddi Gözəl. s.4

filosofların, sərkərdələrin, hökmdarların həyat və fəaliyyətini öyrənmişdi. Şair, tanınmış sərkərdə İskəndəri əsas surət seçməklə həm dastanı maraqlı etmiş, həm tarixi simanı ədəbiyyata gətirmiş, həm də öz fikir və mülahizələrini əxz etdirməyə çalışmışdır. Bu əsərdə Şərqlə Qərbin təması, dünyanın məhvəri, müharibə və sülhün əlaqəsi öz təntənəsini tapır. Nizami bütün bunları İskəndərin simasında cəmləşdirib vermək istəmişdir. Şair «İskəndərnamə» poemasını iki yerə bölməklə onun I hissəsini «Şərəfnamə» adlandırır. Bu hissədə daha çox İsgəndərin qoçaqlığı, hərbi yürüşlərdəki şücaəti və ədalətindən bəhs edir[1]. İsgəndəri vətənpərvər bir hökmdar olaraq göstərir. Daranın zülmünə son qoyan İsgəndəri Misirdən Ruma qədər məşhurlaşdırır. Bundan sonra İsgəndəri hətta, peyğəmbər kimi qəbul etməyə başlayırlar.

Əsərlərində çoxsaylı döyüşlərin böyük ustalıqla və hərb qanunlarına uyğun dəqiqliklə təsvir edilməsi sübut edir ki, mütəfəkkir şair hərb tarixinə, döyüş strategiyası və taktikasına dair bilikləri dərindən mənimsəmişdir. O, ağlın və qılıncın gücünü birləşdirir, hərbi-siyasi yolla mübarizəyə daha çox üstünlük verir. Fikrimizi sübuta yetirmək üçün bir nümunəyə diqqət yetirək:

- İsgəndər təzə taxta çıxarkən Zənci qoşunları ona qarşı müharibəyə başlayır. Sayı-hesabı olmayan və insan qanını içməyi özünə adət etmiş bu qoşunun vahiməsi İsgəndərin ordusunda qorxu hissi yaradır. Orduda qorxu hissi olmamalıdır. “Meydanda əsgərə qorxu üz versə, cəza fayda verməz, ordu dağılar”,– deyən İsgəndər ağıllı, cəsarətli vəziri yanına çağırıb ona gizlicə deyir: “Ortaya elə bir sağlam fikir at; Bizə bu qorxudan versin bir nicat”. Ağıllı və hünərli vəzir bir qədər düşündükdən sonra İsgəndərə belə bir tədbirə əl atmağı məsləhət görür. Düşmən qan içməklə bizi qorxudursa, biz insan ətini yemək səhnəsini yaratmaqla onları daha böyük vahiməyə sala bilərik[2].

«İskəndərnamə» poemasında Nizami tarixə müraciət edərək dövlətin idarəsində və qorumasında vəzirlərin rolunu yüksək qiymətləndirir. İsgəndər müharibədə düşmənə qalib gəlmək üçün bilikli vəzirin məsləhətini qəbul edir. Vəzirin məsləhəti ilə bir neçə dustaq zəncini İsgəndərin hüzuruna gətirirlər. İsgəndər onlardan birinin başını başqa dustaq zəncilərin gözləri qarşısında kəsdirir və aşpaza tapşırır ki, onun zənci başı yeməkdən çox xoşu gəldiyi üçün həmin başı tez bişirib gətirsin.

Vəzirin gizli tapşırığı ilə qara qoyunun başı bişirilir, zəncinin başı isə torpağa basdırılır. İsgəndər əsir zəncilərin gözləri qarşısında bişirilmiş “zənci başını” (əslində qara qoyunun başını) böyük iştahla yeməyə başlayır və qışqırır:

*“Bilsin o adamcıl, müdhiş canavar,*
*Ondan iti dişli insan yeyən var!”*

Bu qorxunc səhnəni müşahidə edən zənci əsirlər bilərəkdən azad edilir və onlar öz ordusu arasında gördüklərini söyləyərək vahimə yaradırlar. Zənci qoşunu arasına beləliklə vəlvələ düşür, İsgəndərin ordusunda isə qələbəyə inam yaranır. Nəticədə İsgəndər ağılın gücünü qılıncın qüdrəti ilə birləşdirərək sayca öz ordusundan qat-qat çox olan, qaniçən zənci qoşununa qalib gəlir.

Bəli, dahi Nizami hələ XII əsrdən bizə öyrədir ki, qaniçən düşmənə qarşı qəddar olmaq lazımdır. Nizaminin əsərlərində öz

[1] Səbuhi Əhmədov. Azərbaycan tarixindən yüz şəxsiyyət. s.48

[2] Bayram Apoyev. Nizami Gəncəvinin pedaqoji görüşləri. s..72

ifadəsini tapan hərbi-siyasi məsələlərə dair söylədiyi müdrik fikirlər bu gün də öz aktuallığını qoruyub saxlayır. Qarabağın azad edilməsində aparılan parlaq hərbi-siyasət dahi şairin hərbi-siyasi fikirlərinin ən bariz nümunəsidir. Biz, 44 günlük müharibədə ağlın və silahın gücünü birləşdirərək tarixi qələbə əldə etdik. Odur ki, görkəmli alimimiz Nizami Gəncəvi çox haqlı olaraq qeyd etmişdir ki, hərbdə siyasət mühüm əhəmiyyət kəsb edir.

Nizami Gəncəvi İsgəndərin Bərdə hökmdarı Nüşabə ilə qarşılaşma səhnəsində də ağlın gücünü qılıncın gücündən daha üstün tutur. Əsərdə İsgəndər Bərdəyə yürüş edir. Lakin Makedoniyalılarla düşmən olmaq istəməyən Bərdə hökmdarı İsgəndərə süfrə açdırır. Arranda qonağı duz-çörəklə qarşılayırlar. Nüşabə isə bir boşqabda xörək əvəzinə İsgəndərin qarşısına qızıl və gövhər qoyur. İsgəndər süfrədə daş-qaş olduğunu görüb deyir:

*“Ey sadədil insan,*
*Ölçüsüz söyləmə, tökməyəsən tər.*
*Süfrəyə düzmüsən almaz, yaqut, dür,*
*Hamısı daşdandır, daşı kim yeyər?*
*Necə qidalanar daş ilə insan?*
*Təbiət bu hökmü vermişdir, haçan?*
*Elə çörək ver ki, dişimiz batsın,*
*Yeyən, rəğbət ilə ona əl atsın”*[1].

Bu zaman Bərdə hökmdarı cavab verir:

*“Daşın ki, boğaza yolu yox daha*
*Faydasız yaramaz böylə daş üçün*
*Bu qədər vuruşmaq, çırpışmaq neçin?*
*İndi ki yeməyə yaramaz bu daş*
*Dünyada onunla ucalarmı baş?”*[2]

Nüşabənin bu müdrik cavabı İskəndəri Bərdədən əliboş getməyə vadar edir. Nizami burada ağlın hər şeydən üstün olduğunu bir daha göstərir.

Əsərin ikinci hissəsi «**İqbalnamə**» adlanır. Bəzi tədqiqatlarda qeyd edilir ki, Nizami əsərin II hissəsini Mosul atabəylərindən İzzəddin Məsuda ithaf etmişdir. Nizami 1199-cu ildən sonra bitirdiyi bir əsəri Mosul Atabəylərindən I Məsuda həsr edə bilməzdi, çünki həmin şəxs 1193-cü ildən sonra artıq hökmdar deyildi. Kitab onun dövründən ən azı altı il sonra yazılmışdır. Deməli, «İskəndərnamə»nin hər iki hissəsi yalnız 1191-ci ildən 1210-cu ilə qədər hakimiyyət başında olan Azərbaycan Atabəyi Nüsrətəddin Əbu-Bəkrə ithaf olunmuşdur. Şair burada ağıla, əxlaqa və elmə üstünlük verir. Nizami İsgəndər surəti vasitəsi ilə bu nəticəyə gəlir ki, dünyanı güc və zor hesabına deyil ağıl və ədalətin təntənəsi ilə idarə etmək olar. Nizami Gəncəvinin əsərləri bu gün də maraqla oxunur və insanları düşündürməkdə davam edir.

***Nəticə***

Göründüyü kimi Nizaminin tarixdən istədiyi və tarixdə örnək axtardığı ən başlıca şey - ideal hökmdardır. Məhz buna görə də Nizami "Sirlər xəzinəsi"ndən başlamış "İskəndərnamə"yədək hər bir poemasında zorakılığı, nəcib, zəhmətkeş xalqa zülm edilməsini, əyri yollarla var-dövlət yığmağı, tamahkarlığı, qəddarlığı, dəfələrlə kəskin tənqid etmiş, ədalətli hökmdar obrazı yaratmışdır. Bir sözlə, hakim necə olmalıdır prinsipini göstərə bilmişdir. Nizami Gəncəvi ümumbəşəri şair olmaqla yanaşı, böyük vətənpərvər idi. O, bütün əsərlərində təsvir etdiyi hadisələri Azərbaycanla əlaqələndirməyə, vətəninin qüdrətli günlərini

[1] Nizami Gəncəvi. İskəndərnamə. Şərəfnamə. s. 221

[2] Yenə orada. S. 221

tərənnüm etməyə çalışmışdır. Onun yaradıcılığında vətənə məhəbbət doğma xalq yolunda qəhrəmanlıq ideyası ilə birləşir. Şair vətən tarixində olan qəhrəmanları, hətta ideal saydığı qəhrəmanlara qarşı qoymuş, onların daha üstün olduğunu göstərməyə çalışmışdır. Bütün bu məlumatlar məqalənin məzmununda əks olunmuşdur.

*ƏDƏBİYYAT*


1. Abbasqulu ağa Bakıxanov. Gülüstani-İrəm. Bakı. Minarə. 2000.  224 s.
2. Azərbaycan Tarixi (Uzaq keçmişdən 1870-ci illərə qədər). Bakı. “Azərbaycan” nəşriyyatı. 1996. 872 s.
3. Bayram Apoyev.  Nizami Gəncəvinin pedaqoji görüşləri. Bakı. «Adiloğlu» nəşriyyatı. 2008.  244 s.
4. Hüseyn Əhmədov. Azərbaycan məktəb və pedoqoji fikir tarixi. Bakı. ABU. 2001. 320 s.
5. Nizami Gəncəvi. İskəndərnamə. Şərəfnamə. Bakı. "Lider” nəşriyyatı. 2004. 432 s.
6. Nizami Gəncəvi. Yeddi Gözəl. Bakı. “Lider” nəşriyyatı. 2004. 336 s.
7. Sara Aşurbəyli. Şirvanşahlar dövləti. Bakı. "Avrasiya press" nəşriyyatı. 2006. 416 s.
8. Səbuhi Əhmədov. Azərbaycan tarixindən yüz  şəxsiyyət. Bakı “Ayna Mətbu Evi”. 2006. 268 s.
9. Teymur Kərimli. Nizami və tarix. Bakı. “Elm” nəşriyyatı. 2002. 244 s.
10. Ziya Bünyadov. Azərbaycan Atabəyləri dövləti (1136-1225-ci illər). Bakı. "Şərq-Qərb" nəşriyyatı. 2007. 312 s.